“Norm” Açıq Səhmdar Cəmiyyəti

31 dekabr 2020-ci il tarixinə bitən il üzrə
Maliyyə Hesabatları

"NORM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 DEKABR 2020-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ ÜZRƏ
RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik "Norm" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq düzgün əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Mühasibat uçotu siyasətlərinin müvafiq şəkildə seçilməsinə və tətbiqinə;
- Məlumatların, o cümlədən mühasibat uçotu siyasətlərinin müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
- İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Şirkətin maliyyə fəaliyyəti və maliyyə nəticələrinə təsirini anlamağa kömək göstərmək üçün MHBS-ın xüsusi tələblərinin yerinə yetirilməsi yetərli olmadıqda əlavə açıqlamaların verilməsinə; və
- Şirkətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin, rəhbərlik aşağıdakılara cavabdehdir:

- Şirkətdə sağlam və effektiv daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və saxlanılmasına;
- Şirkətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə maliyyə vəziyyətinin istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Şirkətin maliyyə hesabatlarının MHBS-a uyğunluğunu təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılmasına;
- Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu standartlarına müvafiq olaraq yerli uçot qeydlərinin aparılmasına;
- Şirkətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlərin görülməsinə; və
- Fırıldaqçılıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına.

Şirkətin 31 dekabr 2020-ci il tarixinə bitən il üzrə maliyyə hesabatlarının buraxılması rəhbərlik tərəfindən 21 iyun 2021-ci il tarixində təsdiqlənmişdir.

Şirkətin rəhbərliyi tərəfindən:

Cənab Henning Sasse	Cənab Elvin Mirzəyev	Cənab Dünyamin Səfərəliyev
Baş İcraçı Direktor	Baş Maliyyə Direktoru	Maliyyə Müdiri

Deloitte & Touche MMAC
Baku Ağ Şəhər Ofis Binası,
8 Noyabr, 25E
Bakı, AZ1025
Azərbaycan

Tel: +994 (12) 404 12 10
Fax: +994 (12) 404 12 11
deloitte.az

MÜSTƏQİL AUDİTOR HESABATI

"Norm" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarına:

Rəy

Biz "Norm" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitən il üzrə Şirkətin mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı daxil olmaqla qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, hazırkı maliyyə hesabatları Şirkətin 31 dekabr 2020-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli hallarda düzgün əks etdirir.

Rəyin Əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("MBESŞ Məcəlləsi")* uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və digər etika öhdəliklərimizi bu tələblərə və MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-lara uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Deloitte adı Deloitte Touche Tohmatsu Limited şəbəkəsinə daxil olan üzv şirkətlərdən birinə və ya bir neçəsinə və əlaqədar müəssisələrinə aid ola bilər. DTTL ("Deloitte Qlobal") və bu şəbəkəyə daxil olan hər bir üzv şirkət ayrı-ayrılıqda hüquqi şəxslər və müstəqil müəssisələrdir. DTTL müştərilərə xidmətlər göstərmir. Ətraflı məlumat üçün www.deloitte.com/about səhifəsinə daxil olun.

© 2021 Deloitte & Touche LLAC. Bütün hüquqlar müdafiə olunub.

İdarəetmə səlahiyyəti olan şəxslər Şirkətin maliyyə hesabatlılığı prosesinə nəzarətin təmin edilməsi üçün məsuliyyət daşıyırlar.

Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti

Bizim məqsədimiz ümumilikdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə birləşdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün mühüm təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar inamsızlığı qoruyub saxlayırıq. Həmçinin biz:

- Maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və müvafiq audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Şirkətin daxili nəzarət mexanizminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu prinsiplərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə şübhə yarada biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə qərar veririk. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar münasib olmadıqda rəyimizə düzəliş etməliyik. Nəticələrimiz auditor hesabatının hazırlanması tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisələr və şəraitlər Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu, o cümlədən, açıqlamaları və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı, audit nəticələri, o cümlədən, audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte & Touche LLAC

21 iyun 2021-ci il

DELOITTE & TOUCHE
MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ
AZERBAIJAN

"NORM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

(Min Azərbaycan Manatı ilə)

	Qeydlər	31 dekabr 2020-ci il tarixinə bitən il	31 dekabr 2019-cu il tarixinə bitən il
Gəlir	5	156,327	149,210
Satışın maya dəyəri	6	(91,657)	(89,944)
Ümumi mənfəət		64,670	59,266
Ümumi və inzibati xərclər	7	(11,499)	(9,317)
Satış və marketinq xərcləri	8	(4,689)	(4,808)
Çatdırılma xərcləri	9	(9,856)	(8,721)
Digər öhdəliklər və xərclər ehtiyatında dəyişiklik	22	(2,840)	-
Ticarət debitor borclarının dəyərsizləşməsi ehtiyatında dəyişiklik	16	(918)	188
Əməliyyat mənfəəti		34,868	36,608
Maliyyə xərci	10	(938)	(583)
Uzunmüddətli kreditor borclarına düzəliş	21	609	(1,339)
Xarici valyuta mübadiləsi üzrə zərər, xalis		(303)	(75)
Digər gəlirlər	5	540	4,355
Vergidən əvvəl mənfəət		34,776	38,966
Mənfəət vergisi xərci	11	(8,162)	(8,879)
İL ÜZRƏ XALİS MƏNFƏƏT VƏ CƏMİ MƏCMU GƏLİR		**26,614**	**30,087**

8-45-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

"NORM" AÇIQ SƏHMDAR CƏMİYƏTİ

31 DEKABR 2020-Cİ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

(Min Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2020-ci il	31 dekabr 2019-cu il
AKTİVLƏR			
Uzunmüddətli aktivlər			
Əmlak, tikili və avadanlıq	12	161,838	167,863
Əmlak, tikili və avadanlıq üçün verilmiş avanslar	13	2,749	4,731
Qeyri-maddi aktivlər		751	666
Cəmi uzunmüddətli aktivlər		165,338	173,260
Qısamüddətli aktivlər			
Mal-material ehtiyatları	15	35,484	32,994
Ticarət debitor borcları	16	15,111	16,161
Digər alınacaq vergilər	17	2,708	4,151
Pul vəsaitləri və onların ekvivalentləri	18	9,407	695
Digər aktivlər	14	41,083	61,435
Cəmi qısamüddətli aktivlər		103,793	115,436
Cəmi aktivlər		**269,131**	**288,696**
KAPİTAL VƏ ÖHDƏLİKLƏR			
Kapital			
Səhmdar kapitalı	19	161,963	161,963
Bölüşdürülməmiş mənfəət		58,264	48,150
Cəmi kapital		**220,227**	**210,113**
Uzunmüddətli öhdəliklər			
Ticarət və digər kreditor borcları	21	3,464	9,682
Təxirə salınmış vergi öhdəlikləri	11	9,101	9,726
Cəmi uzunmüddətli öhdəliklər		12,565	19,408
Qısamüddətli öhdəliklər			
Kreditlər və borclar	20	-	33,323
Ticarət və digər kreditor borcları	21	22,564	23,621
Vergi öhdəlikləri	22	9,006	189
Müqavilə öhdəliyi	5	1,093	1,361
Digər öhdəliklər və xərclər üçün ehtiyatlar	23	3,676	681
Cəmi qısamüddətli öhdəliklər		36,339	59,175
Cəmi öhdəliklər		**48,904**	**78,583**
Cəmi kapital və öhdəliklər		**269,131**	**288,696**

8-45-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

"NORM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 DEKABR 2020-Cİ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

(Min Azərbaycan manatı ilə)

	Qeydlər	Səhmdar kapitalı	Bölüşdürülməmiş mənfəət	Cəmi kapital
1 yanvar 2019-cu il tarixinə qalıq		**161,963**	**18,063**	**180,026**
Cəmi il üzrə məcmu gəlir		-	30,087	30,087
31 dekabr 2019-cu il tarixinə qalıq		**161,963**	**48,150**	**210,113**
Elan olunmuş və ödənilmiş dividendlər	19	-	(16,500)	(16,500)
Cəmi il üzrə məcmu gəlir		-	26,614	26,614
31 dekabr 2020-ci il tarixinə qalıq		**161,963**	**58,264**	**220,227**

8-45-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

"NORM" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 DEKABR 2020-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

(Min Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2020-ci il tarixinə bitən il	31 dekabr 2019-cu il tarixinə bitən il
ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:			
Vergidən əvvəl mənfəət		34,776	38,966
Düzəlişlər:			
Köhnəlmə və amortizasiya		11,606	11,172
Əmlak, tikili və avadanlığın silinməsi		-	(17)
Ticarət debitor borclarının dəyərsizləşməsi ehtiyatında dəyişiklik	16	918	(188)
Vergi öhdəlikləri ehtiyatında dəyişiklik	22	2,840	-
Uzunmüddətli kreditor borcların bağlanması	21	(609)	1,339
Təxirə salınmış gəlirin amortizasiyası		-	(3,719)
Maliyyə xərci	10	938	583
Xarici valyuta mübadiləsindən zərər, xalis		303	75
Dövriyyə kapitalında hərəkətlərdən əvvəl pul daxilolmaları		50,772	48,211
Dövriyyə kapitalında hərəkətlər:			
Mal-material ehtiyatlarında artım		(2,041)	(725)
Ticarət debitor borclarında azalma/(artım)		132	(451)
Digər vergilər üzrə debitor borclarda azalma/(artım)		1,427	(1,491)
Digər aktivlərdə artım		(848)	(521)
Ticarət və digər kreditor borclarında artım		141	6,231
Müqavilə öhdəliklərində azalma		(268)	(257)
Öhdəliklər və xərclər ehtiyatında artım/(azalma)		155	(185)
Digər vergilər üzrə kreditor borclarda artım		30	67
Əməliyyatlardan yaranan nağd pul vəsaitləri		49,500	50,879
Ödənilmiş faiz		(1,057)	(654)
Əməliyyat fəaliyyətlərindən yaranan nağd pul vəsaitləri		**48,443**	**50,225**
MALİYYƏ FƏALİYYƏTLƏRİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİ:			
Borcların alınması		31,414	70,264
Borcların ödənilməsi		(64,629)	(52,447)
Ödənilmiş dividendlər		(16,500)	-
Maliyyə fəaliyyətləri üzrə (istifadə olunan)/yaranan xalis pul vəsaitləri		**(49,715)**	**17,817**
İNVESTİSİYA FƏALİYYƏTLƏRİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:			
Məhdud istifadəli vəsaitlərin ayrılması/(onlara investisiya)		23,088	(57,460)
Əmlak, tikili və avadanlığın alınması		(10,861)	(13,417)
İstiqrazlara investisiya		(1,462)	-
Bank depozitlərinin yerləşdirilməsi		(414)	-
Qeyri-maddi aktivlərin alınması		(248)	(87)
Əmlak, tikili və avadanlığın satışından daxilolmalar		-	40
İnvestisiya fəaliyyətləri üzrə (istifadə olunan) /yaranan nağd pul vəsaitləri		**10,103**	**(70,924)**
Xarici valyuta ilə saxlanılan pul vəsaitlərinin qalıqlarına valyuta məzənnəsindəki dəyişikliklərin təsiri		(119)	(44)
PUL VƏSAİTLƏRİNDƏ XALİS ARTIM/(AZALMA)		**8,712**	**(2,882)**
İlin əvvəlində nağd vəsaitlər	18	**695**	**3,621**
İlin sonunda nağd vəsaitlər	18	**9,407**	**695**

Pul vəsaitlərinin hərəkəti haqqında hesabata aşağıdakı qeyri-pul əməliyyatları daxil deyildir:

1. Əmlak, tikili və avadanlıq üçün qabaqcadan ödənişlərin əmlak, tikili və avadanlığın alınması üçün 2,593 min AZN məbləğində kreditor borclarla əvəzləşdirilməsi.
2. Əmlak, tikili və avadanlıq üçün kreditor borcların 1,375 min AZN məbləğində azaldılması üçün düzəliş.

8-45-ci səhifələrdəki qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.